

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 54 (21.206)

17 mart 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Qətər Dövlətinin Nəqliyyat naziri Cassim Saif Əhməd Al-Sulaitini qəbul edib.

Nazir Cassim Saif Əhməd Al-Sulaiti ölkəmizdə mövcud olan müasir nəqliyyat infrastrukturunun onda dərin təəssürat yaratdığını bildirdi, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün Azərbaycanın müvafiq qurumları ilə danışıqlar aparıldığını dedi. Azərbaycanla əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd edən nazir səfərinin bu məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığını vurğuladı.

Dövlətimizin başçısı ölkələrimizdə regional nəqliyyat infrastrukturu yaradılması istiqamətində mühüm işlər görüldüyünü, bu sahədə uğurlar əldə edildiyini dedi. Azərbaycan ilə Qətər Dövləti arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirən Prezident İlham Əliyev bu sahədə perspektivləri müəyyənləşdirməyin və birgə səyləri artırmağın vacibliyini qeyd etdi.

## Muxtar respublikada müasir rabitə infrastrukturu yaradılmışdır

*Bu gün müasir rabitə sisteminin yaradılması və yeni texnologiyaların tətbiqinin genişləndirilməsi iqtisadi inkişafın təmin olunmasında başlıca amillərdəndir. Ona görə də muxtar respublikada bu məsələ diqqət mərkəzində saxlanılır, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin fəaliyyəti gücləndirilir. Ardıcıl olaraq həyata keçirilən bu tədbirlər fevral ayında da davam etdirilmiş, abonentlərə keyfiyyətli rabitə xidməti göstərilmişdir.*



Ötən ay muxtar respublika rabitə işçiləri üçün əlamətdar olmuşdur. Belə ki, fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Babək Rayon Rabitə İdarəsinin yeni binası istifadəyə verilmişdir. Binada Rabitə İdarəsi və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Babək rayon filialı üçün müasir iş şəraiti yaradılmışdır. Açılış tədbirində 242 kilometrlik Sədərək-Ordubad alternativ fiber-optik kabel magistralının da təqdimatı olmuş, Babək rayon telekommunikasiya şəbəkəsi alternativ fiber-optik kabel magistralına qoşulmuşdur. Bəhs olunan dövrdə mövcud telefon stansiyalarının nömrə tutumlarının artırılması və Naxtel simsiz rabitənin genişləndirilməsi istiqamətində işlər də davam etdirilmiş, muxtar respublikada, ümumilikdə, 294 yeni telefon nömrəsi istismara verilmiş, 5 fərdi mənzilə optik kabel çəkilmişdir. Bundan başqa, muxtar respublikada smart qaz və elektrik sayğaclarının quraşdırılması ilə əlaqədar serverlər qoyulmuş və müvafiq hazırlıq işləri görülmüşdür.

Muxtar respublikanın şəhər, qəsəbə və ən ucqar dağ kəndlərinə belə, optik kabel xəttinin çəkilməsi əhalinin digər rabitə xidmətləri ilə yanaşı, sürətli internetdən də istifadəsinə şərait yaratmışdır. Bu da internet istifadəçilərinin sayının artmasına səbəb olmuşdur. Fevral ayında 538 abunəçi genişzolaqlı internet şəbəkəsinə qoşulmuşdur. Həmçinin bu dövrdə muxtar respublikanın təhsil müəssisələrində 106 kompüter dəsti quraşdırılmış və internetə çıxışı təmin edilmişdir. Poçt-rabitə xidmətinin nümunəvi təşkili də ay ərzində diqqət mərkəzində saxlanılmış, abonentlərdən 485 min 536 manat elektrik enerjisindən, 1 milyon 309 min 421 manat isə qazdan istifadə haqqı toplanılmış, mobil cihazların qeydiyyatı üzrə toplanan vəsaitin dəyəri 13 min 680 manat olmuşdur.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin kollektivi mövcud imkanlardan istifadə edərək bundan sonra da muxtar respublika əhalisinə nümunəvi xidmət göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Builki quruculuq tədbirlərində də yeni məktəb binalarının tikintisi əsas yer tutur

*Muxtar respublikamızda yüksək sürətlə davam etdirilən tikinti-quruculuq tədbirləri həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilməklə qədim diyarımızın hüsnünü tamamilə dəyişib.*

Belə tədbirlər paytaxt şəhərimiz Naxçıvanla yanaşı, rayon mərkəzlərini, ucqar dağ və sərhəd kəndlərini, ən kiçik yaşayış məntəqələrini belə ağuşuna alıb. Ötən il – "Muxtariyyət ili"ndə ən yüksək səviyyəyə çatan quruculuq işləri 2015-ci ildə də davam etdirilməkdədir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin verdiyi məlumata görə, 2015-ci ildə də bir sıra obyektlər üçün mövcud binaların yenidən qurulması və ya yeni binaların tikintisi nəzərdə tutulub.

Bu il Naxçıvan şəhərində 720 şagird yerlik 3 nömrəli məktəbin, Şərur rayonunun Axaməd kəndində 192, Babək rayonunun Xalxal kəndində 144, Xəlilli kəndində 192, Culfa rayonunun Qızılca kəndində 120, Saltaq kəndində 252, Gal kəndində 96, Ordubad rayonunun Gilançay kəndində 96, Şahbuz rayonunun Daylaqlı kəndində 120 şagird yerlik məktəb binalarının tikintisi həyata keçiriləcək. Bir neçə məktəbin binası isə yenidən qurulacaq. Şərur rayonunun Kürçülü kəndində 234, Şərur şəhər 1008 şagird yerlik 2 nömrəli, Kəngərli rayonunun Yurdçu kəndində 252 şagird yerlik məktəb binalarının yenidən qurulması bu sıradadır.

Quruculuq tədbirlərindən Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə və Sədərək rayonundakı Musiqi məktəbinə də pay düşüb. Belə ki, hər iki obyekt üçün yeni binalar inşa olunacaq.

## Yeni tikililər şəhərimizi daha da gözəlləşdirəcək





*Naxçıvan şəhərinin mənzərəsi ildən-ilə yeni tikililərin həyata vəsiqə qazanması ilə daha da gözəlləşir.*

Qədimliklə müasirliyi özündə birləşdirən müxtəliftəyinatlı binaların tikintisi və ya mövcud binaların yenidən qurulması şəhərimizi gözəlləşdirməklə yanaşı, həm də ölkəmizin iqtisadi gücünü təcəssüm etdirir. Naxçıvan şəhərinin "Əlincə" məhəlləsində tikilən hamam kompleksi və avtomobil dayanacağı, avtomobil hissələrinin satışı, eləcə də avtomobil bazarı üçün tikilən obyektlər belə tikililərdən olacaq.

12 min kvadratmetr ərazidə inşa olunan avtodayanacaq üçün tikilinin zirzəmi hissəsində 306 yerlik avtomobil dayanacağı, yuxarı hissədə isə 8540 kvadratmetr sahədə avtomobil satışının həyata keçiracək bazar yerləşəcək. Maşın bazarının kənar hissələrində isə avtomobillərin ehtiyat hissələrinin satışı üçün nəzərdə tutulmuş mağazalar, elektrik, çilingər, yuyucu xidmətləri, yeməkxana və sair fəaliyyət göstərəcək. Obyektdə beton-qəlib işləri başa çatdırılıb, hazırda ikinci mərtəbədə mağazaların hörgüsü davam etdirilir.

2014-cü ilin mart ayından tikintisinə başlanılmış hamam kompleksində isə son tamamlama işləri görülür. 1100 kvadratmetr ərazini əhatə edən və Şərq memarlığının incəliklərini özündə əks etdirən kompleksdə qadın və kişilər üçün hər biri 305 kvadratmetr olmaqla hamam zalları, ayrılıqda 5 hamam otağı və soyunub-geyinmə otaqları yerləşir. Zirzəmi hissədə isə bufet, anbar, qazanxana, hamam aksesuarlarının satılacağı mağaza fəaliyyət göstərəcək. Hamamın su təminatı üçün 3 ədəd 75 tonluq su çənindən istifadə olunacaq.

Qeyd edək ki, hər iki obyektdə tikinti işləri Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılır.

## Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin ixrac potensialı artıb



Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ötən il 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,33, 0,5 litrlik şüşə butulkalarda qazlı, 5, 10 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, 8 milyon 945 min 515 ədəd butulka və taralarda mineral su istehsal edib. Bunun 409 min 20 ədədi sifarişə uyğun olaraq muxtar respublika ərazisində satılıb, 7 milyon 30 min 157 ədədi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərinə yola salınıb, 1 milyon 506 min 338 ədədi isə Rusiya Federasiyasına, Ukrayna, Belarus, Türkiyə, Türkmənistan və Qazaxıstan respublikalarına göndərilib. Gələcəkdə digər xarici ölkələrdə də "Sirab" suyunun satışa çıxarılması nəzərdə tutulur. "Sirab" mineral suyunun ixrac olunması və bazarda özünəməxsus yer tutması bu əvəzsiz təbii sərvətimizin yüksək keyfiyyəti və müalicəvi əhəmiyyəti ilə bağlı olub, Babək "Sirab" ASC-nin bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsal etməklə rəqabətqabiliyyətli müəssisəyə çevrilməsinin göstəricisidir.

Məlumat üçün bildirək ki, istehsal prosesi tam avtomatlaşdırılmış müəssisənin sexlərində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 16 çeşiddə məhsul istehsal edilir.

## Muxtar respublikada indiyədək 503,2 hektar sahədə yaz əkini aparılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada aqrar sektorun inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir. Proqramın qəbulundan ötən müddət ərzində bu istiqamətdə xeyli nailiyyətlər əldə olunub, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün geniş imkanlar açılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, ötən 2014-cü ildə muxtar respublikada 60 min 829 hektar sahədə əkin aparılıb, 355 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal edilib.

2015-ci ilin muxtar respublikamızda, eləcə də ölkəmizdə "Kənd təsərrüfatı ili" elan olunması isə aqrar sahənin istehsalçıları üçün yeni stimul olub. Torpaq mülkiyyətçiləri artıq sahələrə çıxaraq yaz əkini kampaniyasına başlayıblar. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, bu günədək 503,2 hektar sahədə yaz əkini həyata keçirilib ki, bunun 284,2 hektarı arpa, 10 hektarı buğda olmaqla, 294,2 hektarı taxıl, 10 hektarı dənli-paxlalı, 23 hektarı tərəvəz, 109 hektarı kartof, 6 hektarı bostan, 67 hektarı isə çoxillik ot bitkiləridir. Hazırda sahələrdə şum aparılması və əkin davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Diaqnostika-Müalicə Mərkəzində humanitar aksiya keçirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin ölkəmizin paytaxtında fəaliyyət göstərən tanınmış tibb müəssisələri ilə qarşılıqlı əlaqələri, son nəticədə, xəstələrin başqa ünvanlara üz tutmadan yerli şəraitdə müayinə və müalicələrinə mühüm töhfələr verir. Onların iştirakı ilə aksiyalar təşkil olunaraq müayinələr aparılır, müxtəlif cərrahi, o cümlədən laparoskopik, LOR, TUR, kardiocərrahiyyə, oftalmoloji, transplantasiya, damar əməliyyatları həyata keçirilir.***

Qeyd edilməlidir ki, Uşaq Ürək Cərrahiyyə Mərkəzi ilə qarşılıqlı əlaqələr Naxçıvanda uşaq invaziv kardiologiyasının inkişafında əhəmiyyətli rol oynayır. Naxçıvanda uşaqlar üzərində açıq ürək əməliyyatlarının təşkili isə qarşılıqlı əməkdaşlığın ən böyük uğurlarından biridir.

Ənənə halını almış belə tədbirlərin davamı olaraq, M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi Uşaq kardocərrahiyyə şöbəsinin 13 nəfərdən ibarət heyəti ötən şənbə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə gəlmişdir. Heyətdə uşaq ürək cərrahı, tibb üzrə fəlsəfə doktoru Elnur Həsənov, invaziv kardioloq Elnur İmanov, 3 cərrah, 3 anestezioloq-reanimatoloq, 1 perfüzioloq həkim, 6 tibb bacısı təmsil olunur. Mərkəzin invaziv kardioloqu Elnur İmanov aksiyadan əvvəl qeyri-iş günlərində Naxçıvana gələrək əvvəlcədən qeydiyyata alınmış xəstələr üzərində yerli həkimlərlə birgə 25 EXO müayinəsi aparmış, əməliyyata ehtiyacı olan anadangəlmə ürək qüsurlu uşaqlar seçilərək onların siyahısı hazırlanmışdır. Artıq ötən üç gün ərzində 5 cərrahi müdaxilə aparılmışdır. Xəstələr bir neçə günlük həkim nəzarətindən sonra evlərinə buraxılacaqlar.

Şərur rayonundan gəlmiş valideyn Babək İsmayılov bu aksiyanı muxtar respublika əhalisinin sağlamlığına göstərilən dövlət qayğısının təzahürü kimi dəyərləndirərək bildirib ki, anadangəlmə ürək qüsuru olan oğlunun muxtar respublikamızdan kənarda müalicəsi ailə üçün çətinlik yaradırdı. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində humanitar aksiyanın keçiriləcəyindən xəbərdar olunca bu səhiyyə müəssisəsinə müraciət edib. Övladı həkimlərin şəfqəti ilə əhatə olunub, aparılan müayinələrdən sonra beşyaşlı Mahirin üzərində açıq ürək əməliyyatı aparılmasına göstəriş verilib. Təmənnasız olaraq həyata keçirilən bu əməliyyatdan sonra övladı tam sağalıb. Bu, Novruz bayramı ərəfəsində ailə üçün ən böyük sevinc olub. Digər valideynlər də belə humanitar aksiyaların təşkilinə şərait yaradanlara, onun icraçılarına hədsiz minnətdarlıqlarını ifadə etmişlər.

Humanitar aksiya çərçivəsində əməliyyat üçün seçilmiş digər xəstələr üzərində pulmonar ballono plastika, botal axacağın bağlanması əməliyyatları aparılacaqdır. Ordubaddan gəlmiş 12 yaşlı Maral Məmmədovanın üzərində isə Naxçıvanda ilk dəfə olaraq epişteyn anomaliyasının total korreksiyası kimi nadir əməliyyatın həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bir invaziv əməliyyat isə uşaq invaziv kardioloqu E.İmanov tərəfindən həyata keçiriləcəkdir.

## Ümumtəhsil məktəblərində stomatoloji müayinələr aparılır

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Stomatoloji Mərkəzin iş planına uyğun olaraq, muxtar respublikamızda bütün məktəbəqədər və məktəbyaşlı uşaqlar arasında ildə iki dəfə stomatoloji müayinələrin aparılması nəzərdə tutulub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzdə 6 həkim və 6 tibb bacısından ibarət briqada yaradılıb. Yanvarın 22-də start verilən ilkin mərhələnin profilaktik tədbirləri hazırda uğurla davam etdirilir.***

Yaz mövsümünün stomatoloji müayinələri Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərini əhatə edəcəkdir. Bu müddətdə müayinələrə 11 min 435 nəfər məktəblinin cəlb edilməsi nəzərdə tutulub. Artıq Naxçıvan şəhərinin 7 ümumtəhsil məktəbində, eləcə də Ordubad şəhərindəki Məhəmməd Füzuli adına tam orta internat məktəbində müayinələrin ilk mərhələsi başa çatıb. Müayinələrlə əhatə edilən 3,4 min şagirdin 55 faizində çənə qüsuru, diş əti xəstəliyi, kariyes və onun fəsadları müşahidə olunaraq onlar qeydiyyata alınıblar. Məktəblərdə fəaliyyət göstərən tibb kabinələrinin işçiləri uşaqların müayinədən keçirilməsində və sənədləşmənin aparılmasında, eyni zamanda qeydiyyata götürülməsində yaxından iştirak edirlər.

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən tədbirdə Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova çıxış edərək dişlərə qulluğun insan sağlamlığında rolundan danışıb.

Sonra ağız boşluğuna qulluq haqqında slaydlar nümayiş etdirilib.

Tibb kabinəsində məktəbin 800 şagirdi profilaktik müayinələrə cəlb edilib, ağız boşluğunun, dişlərin profilaktik müayinələri aparılıb. Kariyes və diş əti xəstəliyi müşahidə olunan şagirdlərin valideynlərinə onların müalicəyə cəlb edilməsi tövsiyə olunub. Məktəblərin yaz tətilindən sonra Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin tələbələrinin də bu müayinələrdə iştirak edərək praktik vərdişlərə yiyələnmələri nəzərdə tutulub.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Rezidenturaya qəbul imtahanının birinci mərhələsi başa çatıb

Mart ayının 15-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2015-2016-cı tədris ili üçün Azərbaycan Respublikasında baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidentura səviyyəsinə qəbul imtahanının I mərhələsini keçirib. Naxçıvan şəhərində Naxçıvan Dövlət Universitetində keçirilən imtahanda 35 namizəd iştirak edib.

Birinci mərhələdə namizədlərə baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq, qəbul proqramı əsasında baza fənləri üzrə 100 test tapşırığı təqdim olunub. İmtahan suallarının cavablandırılmasına 2 saat 30 dəqiqə vaxt ayrılıb.

Rezidentura səviyyəsinə qəbul imtahanının II mərhələsi iyulun 7-də keçiriləcək və ikinci mərhələyə imtahanın birinci mərhələsində topladığı bal 40-dan az olmayan namizədlər buraxılacaqlar.

Qeyd edək ki, hər bir test tapşırığının düzgün cavabı 1 (bir) balla qiymətləndirilir və səhv cavablar namizədin imtahan nəticəsinə təsir göstərmir.

**Xəbərlər şöbəsi**

*Martın 16-da Novruz bayramı münasibətilə Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib.*

## Bayram ərəfəsində sosial qayğıya ehtiyacı olan insanlar unudulmadı



Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova çıxış edərək sakinləri Novruz bayramı münasibətilə təbrik edib, onlara cansağlığı arzulayıblar.

Çıxışlarda xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən ahılların sosial müdafiəsinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışılıb. Vurğulanıb ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində ahıl və məhdud fiziki imkanlı vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlib, onların sağlam həyat tərzində yaşamaları, maddi və mənəvi tələbatlarının ödənilməsi üçün hərtərəfli şərait yaradılıb.

Ahıl insanların sağlamlıqlarının qorunmasına, tibbi reabilitasiyalarına xüsusi diqqət yetirilir. Tənha ahıllara evlərində baş çəkilərək qayğıları ilə maraqlanılır, zəruri sosial problemləri yerindəcə həll edilir, onlar həkim müayinəsindən keçirilirlər. Son illər bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli keçirmələri istiqamətində həyata keçirilən tədbirlər intensiv xarakter alıb.

Həmçinin qeyd edilib ki, Ahıllar evi sakinlərinin rahat yaşamaları üçün yüksək şərait yaradılıb, onlara mütəmadi tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Sosial müdafiəyə ehtiyacı olan şəxslərə göstərilən davamlı dövlət qayğısı onların rifahının daha da yaxşılaşmasına xidmət edir.

Tədbirin bədii hissəsində Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə bayram hədiyyələri təqdim olunub.

Ahıllar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

* * *

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə martın 16-da Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində bayram tədbirləri keçirilib.

Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Nazilə Ləzgiyeva çıxış edərək Novruz bayramı münasibətilə məhdud fiziki imkanlı şəxsləri təbrik edib, onlara cansağlığı arzulayıblar.

Çıxışlarda qeyd olunub ki, muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslər dövlətimizin qayğısı əhatəsində yaşayırlar. Onların sosial müdafiəsinin gücləndirilməsi, tibbi-sosial reabilitasiyalarının həlli, cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir. Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslər minik avtomobili, müxtəlif texniki-bərpa vasitələri ilə təmin olunur, tənha yaşayan, köməyə ehtiyacı olan şəxslərə evdə sosial-məişət xidməti göstərilir. Bu kateqoriyadan olan şəxslərin istedadlarının üzə çıxarılması, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, əlamətdar günlərdə, o cümlədən Novruz bayramı münasibətilə məhdud fiziki imkanlı şəxslərlə görüşlərin təşkili davamlı dövlət qayğısının ifadəsidir.

Həmin gün rayon mərkəzlərində də Novruz bayramı münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və müvafiq rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Yataq xəstəsi olan məhdud fiziki imkanlı şəxslərə baş çəkilib, onların yaşayış vəziyyəti ilə maraqlanılıb, bayram sovqatı verilib.

Bayram tədbirlərində, ümumilikdə, məhdud fiziki imkanlı 1000 şəxsə bayram sovqatı təqdim edilib.

Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Bayram yarmarkası Novruz süfrəsinin daha zəngin olmasına şərait yaradır

***Təbiətin oyanış fəsli baharın müjdəçisi olan Novruz bayramı xalqımız tərəfindən hər il böyük ruh yüksəkliyi ilə qarşılanmaqda, bayram adətləri yaşadılmaqdadır. Milli varlığımızı və ulu babalarımızın mənəvi aləminin zənginliyini bütün incəlikləri ilə əks etdirən Novruzun əsas atributlarından biri də bayram süfrəsidir. Martın 14-dən başlayaraq Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi bayram yarmarkasının təşkilində əsas məqsəd süfrələrimizdə əsl bayram bolluğu yaratmaqdır.***





Şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınması məqsədilə keçirilən bayram yarmarkasına martın 15-də 57 sahibkarlıq subyekti tərəfindən 109 növdə, 321 çeşiddə məhsul çıxarılmışdı. Yarmarkada səliqə-sahman, fermerlərə və digər torpaq mülkiyyətçilərinə, eyni zamanda buraya bazarlığa gələn paytaxt sakinlərinə əlverişli şəraitin yaradılması diqqəti daha çox cəlb edir-di. Yarmarkaya gələnlər yerli tərəvəz və meyvə məhsullarını həvəslə alırdılar. Yerli fermerlər yarmarkaya mal və qoyun əti, ağartı gətirmişdilər. Məhsullar mağazalardakından 15-20 faiz ucuz qiymətə təklif olunurdu. Səhər saatlarından yarmarkada əhali sıxlığı yaranmış, saat 11[30]-da yarmarkaya daxil olan məhsulların 85 faizindən çoxu satılmış, alıcılar bayram səbətini doldurmuşdular.

Alıcılardan biri, şəhər sakini, təqaüçü-müəllim Zahirə Cəfərova ilə elə piştaxta önündəcə həmsöhbət olduq. O dedi ki, ötən illə müqayisədə qiymətlərdə artım yoxdur. Bazarda təklifi artırmaqla və tələbi daha dolğun ödəməklə qiymətlərin aşağı salınmasına nail olunub. Daha doğrusu, qiymətlər bazarlarda yaradılan bolluğa uyğun olaraq formalaşıb. Ona görə də bir çoxları kimi, mən də evdə apardığım hesabla və nəzərdə tutduğum qiymətlərə görə çətinlik çəkmədən bayram bazarlığımı etdim. Yarmarkanın təşkilində əməyi olanlara minnətdarlığımı bildirirəm.

Yarmarkaya Ordubad rayonunun Əndəmic kəndindən çeşid-çeşid məhsullarla – alma, armud, alana, sucuq, ərik qurusu, tut qurusu, cəviz, fındıq, mürəbbə və süfrələrin bəzəyi sayılacaq digər nemətlərlə gələn Mərdan Rüstəmov burada kənd zəhmətkeşləri üçün əlverişli şəraitin yaradıldığını bildirir və deyir ki, bayram yaxınlaşanda kəndlinin bazara çıxarmağa məhsulu yoxdursa, demək, o, bayramaqədərki müddətdə tənbəllik edib. Çünki yazda, yayda, payızda toplanan məhsulun bir qismini istənilən adam Novruz azuqəsinə çevirə bilər və bu azuqəni bayramda yarmarkaya çıxararaq yaxşı gəlir əldə edər. Kənddən gələn istənilən məhsula şəhər sakinləri tərəfindən maraq böyükdür və bu məhsul qısa zamanda alınır.

Əliylə piştaxtada səliqəylə yanyana düzülmüş kəhrəba kimi sucuqları göstərən müsahibim deyir ki, cəviz ləpəsi, doşab və undan hazırlanan bu məhsula yarmarkada maraq böyükdür və bunu hazırlamaq o qədər də çətin deyil. Gördüyünüz kimi, bu məhsuldan yalnız mən gətirmişəm və yaxşı da qazanc əldə etmişəm. "Yarmarkaya çıxarmağa heç nəyim yoxdur", – deyən kənd sakinlərinə də qəzetiniz vasitəsilə üzümü tutub deyirəm ki, kənddə hazırlanan hər hansı bir məhsul belə yarmarkalarda tez satılır. Əgər istəyiriksə ki, maddi cəhətdən təmin olunaq, istehlakçılara məhsulu birinci əldən çatdıraq, o zaman tənbəllik etməməli, ana torpağın bizə verdiyinin az-çoxuna baxmalı, ruhdan düşməməliyik.

Məlumat üçün bildirək ki, sonuncu bayram yarmarkası martın 19-da təşkil ediləcək.

**Səbuhi HÜSEYNOV**

Novruza doğru

# Çərşənbələr haqqında bildiklərimiz və bilmədiklərimiz



**Azərbaycan etnoqrafiyasında və folklorşünaslığında geniş şəkildə araşdırılmış məsələlərdən biri də xalq təqvimi ilə bağlıdır. Tədqiqatçılar daha çox qışın yola salınıb, yazın qarşılanması məsələlərinə diqqət yetirirlər. Sovetlər dönəmində bu məsələlərin öyrənilməsinə o dərəcədə diqqət verilməsə də, keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq bununla bağlı çox sayda kitablar, məqalələr nəşr edildi. Təqvim adətlərinin, onunla bağlı inamların ayrı-ayrı sahələri ilə yanaşı, qışın yola salınması, yazın qarşılanması ilə əlaqədar məsələlər də geniş tədqiqata cəlb edildi.**

Bu, öz əksini B.Abdullayevin “Haqqın səsi”, “Azərbaycan mərasim folkloru”, R.Əsgərovun “İqlimdən-iqlimə, təqvimdən-təqvimə”, A.Nəbiyevin “İlaxır çərşənbələr” kitablarında, B.Abdulla və T.Babayevin tərtib etdikləri “Novruz Bayramı Ensiklopediyası”nda, digər kitablarda, müxtəlif toplularda və məqalələrdə tapmışdır. Təbii ki, bunların böyük əhəmiyyəti vardır. Lakin müsbət tərəflərlə yanaşı, problemin öyrənilməsində yerli materiallardan, xüsusən etnoqrafik çöl materiallarından geniş istifadə edilmədiyindən müəyyən məsələlər dolaşıq salınmışdır. Bu, özünü daha çox çərşənbələr, Novruz bayramı, quyruqdoğdu ilə bağlı yazılarda göstərir. Hər şeydən öncə, müəlliflərin eyni mövqedən çıxış etməməsi vahid fikrə gəlməyə imkan vermir.

Naxçıvanda xalq arasında qışın son ayı “çilləbeçələr” və ya “çərşənbələr” adı ilə dörd yerə bölünür. Göy üzünün daha çox buludlu olması ilə əlaqədar bu dövr “boz ay” da adlanır. Xalq arasında olan inama görə, kiçik çillədən sonrakı ilk çərşənbədən başlayaraq Novruz bayramına qədərki hər çərşənbədə təbiətdə müəyyən dəyişikliklər baş verir. Toplanmış etnoqrafik materiallara söykənərək demək olar ki, Naxçıvanda hər çərşənbənin ayrıca adları vardır. Həmin adlar bölgələr üzrə fərqlənsələr də, birinci çərşənbə “əzəl, yalançı” çərşənbə, ikinci çərşənbə “xəbər, külə” çərşənbə, üçüncü çərşənbə “quyruqlu, qara” çərşənbə, dördüncü “axır (ilaxır)” çərşənbə adlanır. Üç çərşənbədə Ordubadın bəzi kəndlərində axşamüstü od yandırılır, Axır çərşənbə isə çox təntənəli qeyd edilir. Toplanmış materiallara əsaslanaraq deyə bilərik ki, xalq arasında çərşənbələr təbiətdə baş vermiş dəyişikliklərlə, özgə sözlə desək, dörd ünsürlə əlaqələndirilir. Belə əlaqə olmasına baxmayaraq, xalq çərşənbəni onun əlamətləri ilə adlandırmırdı. Yəni su, od, torpaq və yel ifadələri çərşənbə ilə birgə çəkilmirdi. Son dövrlərdə müxtəlif məqalələrdə, xüsusən televiziya verilişlərində çərşənbələr xalq arasında olan adlarına görə deyil, dörd ünsürə uyğun – “su, od, torpaq və yel” çərşənbələri adlandırılmışdır. Biz əvvəlcədən bunun əleyhinə olmaqla ənənəviliyin qorunub saxlanmasına çalışmışıq. Digər çərşənbələrin xalq arasında olan adları unudulsa da, axır çərşənbə qalmaqdadır. İstər-istəməz düşünməli olursan, çərşənbənin axırı olduğu kimi, əvvəli də olmalıdır.

İnama görə, hər çərşənbə bir ünsürü təmsil edir. Xalq arasında olan məlumatlara söykənərək demək olar ki, son dövrlərə qədər axır çərşənbə müstəsna olmaqla, digər çərşənbələr geniş şəkildə qeyd edilməmişdir. Xalq arasında olan inama görə, çərşənbə günlərin əsas əlaməti el arasında “cəmrə”, “cəmərə”, “cəlimə” adı ilə bilinən dəyişiklikliyin baş verməsidir. Bu, “cəmrə düşməsi” adlanır. Deyirlər ki, əvvəl (əzəl), yalançı çərşənbədə cəmrə suya düşdü, sular coşmağa, qızmağa, dəyişilməyə başladı. İnama görə, həmin gündən quyuların suyu artır, suların donuşluğu aradan qalxır, quyruqdoğduda kəsərdən düşmüş şor sular (mineral bulaqlar) müalicəvi xüsusiyyətlərini bərpa edirlər. Bu dövrdən yazın ilk əlaməti olan suların bulanması baş verir. Sonrakı cərşənbələrdə cəmrənin ardıcıl olaraq oda, torpağa, yelə (küləyə) düşdüyünə inanılır.

İlk cəmrədən sonra sular bulansa da, qaynayıb-coşsa da, havalar soyuq olduğundan xalq bunu “yalan çərşənbə”, “əzəl çərşənbə” adlandırır. İkinci çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açılması baş verir ki, bu, “xəbər çərşənbə” adlanır. Xəbər gəlsə də, istilik dəyişkən olduğundan yaşlılar bunu aldadıcı hesab etməklə qaramalı açıq havaya çıxarmamağı məsləhət görürlər. “Qanın oyanması” adlanan bu dövr insanlar üçün çox qorxulu hesab edilir. El arasında deyirlər ki, Günəşin işarmasına baxmayın, hələ torpaq qızmayıb, insana tez soyuq dəyər. Belə xüsusiyyətlərinə görə Naxçıvanın bəzi yerlərində bu çərşənbə “külə”, yəni tam olmayan, kəsir çərşənbə adlanır. Sözün ilk çiçək görünməsi ilə əlaqəli olduğunu yazan bəzi müəlliflər onun “gülə çərşənbə” adlandığını deyirlər. Lakin sonrakı, üçünçü çərşənbənin “qara çərşənbə” ilə yanaşı, “quyruqlu çərşənbə” də adlanması sözün külə olduğunu deməyə əsas verir. Üçüncü çərşənbə – qara, quyruqlu çərşənbə torpağın qızması, onun buğlaması (buxarlaması) ilə əlamətdardır. El arasında deyirlər ki, cəmrə torpağa düşür, torpaqdan buxar qalxır, deməli, o qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yubadılmadan əkilməlidir. Bir az yubansa, onun məhsuldarlığı aşağı olacaqdır. Ümumiyyətlə, yazlıq arpanı yazın ilk günlərinə



qədər əkmək məsləhət görülür.

Çərşənbənin “qara çərşənbə” adlanmasını iki mənada izah edirlər:

*1. Xalq arasında olan adətə görə, mərhumlara bu çərşənbə ərzində “qara bayram” keçirilir, ailələr yasdan çıxırlar. Xalq axır çərşənbəyə və Novruza yasdan çıxmış halda getməyə çalışır.*

*2. Çərşənbənin “qara” adlanması qarların tamamilə əriməsi, torpağın qaralması ilə də əlaqələndirilir.*

Bu çərşənbədə evlərin, həyət-bacanın yığışdırılması başa çatdırılır. İmkan daxilində qışdan çıxmış evlərə müəyyən bəzək vurulur, yəni bayramsayağı bəzədilirdi. Bununla əlaqəli olaraq Şəhriyar deyir:

*Bayram olub, qızıl palçıq əzərlər,*
*Naxış vurub otaqları bəzərlər,*
*Taxçalarda düzmələri düzərlər.*
*Qız-gəlinin fındıqçası, hənası,*
*Həvəslənər anası, qaynanası.*

Ustad Şəhriyarın bu misraları elimizdə, obamızda bayrama hazırlıqla bərabər, evlərimizin ənənəvi quruluşu, onların bəzədilməsi ilə bağlı dəyərli məlumat verir. Naxçıvan ərazisindən toplanmış materiallara söykənərək demək olar ki, burada da axır çərşənbəyə qədər bu işlər görülməli idi. Yaşlı insanların söylədiklərinə görə, ətrafda olan qırmızı və ya ağ torpaqdan gətirib suda həll edər və süpürgə vasitəsilə onu evin divarlarına vurardılar. Bu, el arasında “evin çırpılması” adlanırdı. Taxçalı, rəfli evlərə gəlincə, onlar Ordubad şəhərində və bəzi kəndlərdə tək-tək qalmaqdadır.

Bu çərşənbə ilə axır çərşənbə arasında yerinə yetiriləcək ən başlıca vəzifələrdən biri lazım olacaq şirniyyatın, ərzaq məhsullarının, qız-gəlinə aparılacaq “ilaxır payı”nın hazırlanmasıdır. Bu məsələdə yardımlaşmaya böyük önəm verilirdi. Bayram hazırlığı olmayan ailələrə qohumlar, yaxın qonşular tərəfindən gizli şəkildə köməklik göstərilirdi. Elə şərait yaradılırdı ki, əziz gündə kimsə məyus olmasın.

İlin axır çərşənbəsi cəmrənin küləyə düşdüyü çərşənbədir. Bu çərşənbə Naxçıvanda çox təntənəli şəkildə qeyd olunur. El arasında deyirlər ki, bu gündən başlayaraq vədə yelləri, bayram yeli əsəcək, hava dəyişəcək, köçəri quşlar, xüsusən qaranquş gələcək. Vədə yeli ilə bağlı xalq arasında deyirlər ki, hər şey vədəyə baxsa da, vədə heç nəyə baxmaz. Ustad Şəhriyar bayram yelini yazın başlanğıcı hesab edir:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruz gülü, qar çiçəyi çıxanda,*
*Ağ buludlar köynəklərin sıxanda,*
*Bizdən də bir yad eyləyən sağ olsun,*
*Dərdlərimiz qoy dikəlsin, dağ olsun.*

Həmin gündə bir sıra vacib məsələlərə əməl edilir: hər kəs evində olmağa çalışır, qız-gəlinlərə pay göndərilir, qəbirlər ziyarət olunur, bayram süfrəsi açılır, bir sıra şirniyyat və yeməklərlə yanaşı, mütləq plov bişirilir. Xalq arasında plov ilaxır çərşənbənin atributu sayılır. Kimsəsizlər, xəstələr yad edilir. Qohum və qonşular tərəfindən yasdan çıxmamış ailələrin ocağı yandırılıb onların həyətində qazan asılır. Gün batanda həyətlərdə tonqal qalanır və ailə üzvləri onun üzərindən atılırlar. Bu vacib əməllərdən sonra qız-gəlinin, oğlan uşaqlarının qapıları pusması, niyyət etməsi, şal atması, müxtəlif əyləncəli oyunları başlayır ki, bu da gecəyarısına qədər davam edir. Səhər erkən, Günəş doğmamışdan bütün insanlar çay, çeşmə, bulaq başına gəlib su üstündən tullanar, sudan dilək diləyib, dərd-sərlərinin onun üstünə tökülüb axmasını, yeni ilə dərd-bəlasız getməyi arzulayarlar. Qadınlar çeşmədən, bulaqdan “ilaxır suyu” və “bərəkət daşı” adlanan kiçik daşlar götürərlər. “İlaxır suyu”nu gələn ilin axır çərşənbəsinə qədər saxlayardılar. Daşlar isə bərəkət rəmzi olaraq yağ küpəsinə, unluğa və digər ərzaqların içərisinə qoyulardı. Bərəkətli olsun deyə, kişilərin belə daşları kisələrinə qoyduqları da söylənilir. Növbəti ildə həmin daşlar bulağa, çeşməyə atılıb yenisi götürülürdü. Beləliklə, axır çərşənbədə bütün ünsürlər – su, od, torpaq və hava birləşib tamı yaradırdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, axır çərşənbə müstəsna olmaqla, Naxçıvanda digər çərşənbələrdə hər hansısa adətə, inama əməl edilməməklə heç bir mərasim keçirilməmişdir. Bu yazıda bizim məqsədimiz çərşənbələrin xüsusiyyətlərindən söhbət açmaq olduğundan adət və inamların üzərində çox dayanmayıb yaradılışda dörd ünsürün ardıcıllığından bəhs etməkdir. Yəni xalq arasında olan adət və inamların yaradılışla, təbii dəyişmələrlə bağlılığı məsələsindən ki, bu, bütün mübahisələrin sonu, elmi möhürdür.

Öncə qısaca olaraq yaradılış haqqında: dini mənbələrdə, mifoloji mətnlərdə, bir sıra yazılı qaynaqlarda yaradılışın əsasını su, istilik anlamında enerji, hərəkət, torpaq və hava (nəfəs) təşkil edir. Qədim Şumer əfsanələrinə görə, öncə tanrılar mövcud idi, bütün dünya isə dərin sularla örtülmüşdü. Tanrıça Namu dərin sulardan palçıq götürüb ona özlərinə oxşar şəkildə forma verir, sonra nəfəs püləyir. Oxşar inama Altay türklərində Ülgenin insanı yaratması motivində rast gəlirik. Səmavi dinlərdə də yaradılış su, hərəkət, daxili enerji, torpağın (palçığın) insan formasına salınması, sonda ona nəfəsin, havanın verilməsi ilə başa çatır. Dörd ünsürün birləşməsi ilə tamın yaranması ilkin insana, Adəmə də aiddir. “Qurani-Kərim”də sonrakı insanların bir qətrə sudan, nütfədən, bişmiş yumurtadan yarandığı xəbər verilir ki, bunun da mayasında enerji dayanır. Təbiətdə olan bütün flora və fauna dörd ünsürün birləşməsindən yaranır, doğulur. Bu, insanlarda və digər bala doğan canlılarda dərin düşüncə tələb edən proses olsa da, bir toxumun cücərməsində açıq müşahidə ediləndir. Dörd ünsür olmadan həyat yoxdur. Toxumunda mayası donuq halda, daxili enerjinin təsiri ilə hərəkətə gələ bilən, istiliyə, köklərini atmaq, qida almaq üçün torpağa, bütün bu proseslərdə boğulmamaq üçün havaya, nəfəsə möhtac olan bitki bunun parlaq misalıdır. Özgə sözlə desək, onun da cəmrətə ehtiyacı var. Yaz da doğulma, varolma, oyanma məqamıdır ki, o, dörd ünsürün birləşməsi nəticəsində baş verə bilər. Bu inanış, reallıq özünü dərk edən hər bir insana və insanlığa aiddir. Biz türklər həmin inamların mayasını qorumaqla onu bizə məxsus adət və mərasimlərlə zənginləşdirib, qoruyub saxlamışıq.

Qeyd edək ki, “dörd ünsür” məsələsi bir sıra orta əsr mənbələrinə, şifahi xalq yaradıcılığına daha çox ab (su), atəş (od), xak (torpaq), bad (külək) kimi daxil olmuşdur. Bununla bağlı Şah Xətai deyir:



*Məndədir Yer ilə göyün hikməti, həm qüdrəti,*
*Abu-atəş, xakü-badü cümlə ərkan məndədir.*

Yuxarıda verilmiş abu-atəş, xakü-bad ifadələri bütövlüyü simvolizə etməklə dörd ünsürün ardıcıllığına işarədir. Belə ifadələrə Nizaminin, Nəsiminin, Füzulinin əsərlərində, aşıq yaradıcılığında da rast gəlinir ki, bunların çərşənbələrlə əlaqəsi yoxdur. Sadəcə, qışın son ayı, çilləbeçələrdə baş vermiş dəyişikliklər tamın formalaşması ilə bağlı olduğundan bu əlamətlər ona şamil edilmişdir.

Bu məsələnin bürclər üzərində izahına da ehtiyac var. Xalq arasında olan inama görə, çilləbeçələr dörd dəyişikliyin təmsilçisidir. Biz yuxarıda bunları ardıcıllığı ilə verdik. İndi isə qədim mənbələrdə, astronomik təqvimdə ortaq cəhətləri nəzərdən keçirək. İlk çərşənbə kiçik çillədən sonrakı, yəni qışın son ayının ilk çərşənbəsi indiki təqvimə görə, fevralın 20-dən sonraya uyğun gəlir. Astronomik təqvimə, bürclərə münasibətinə görə, Günəş balıq bürcünə daxil olur. Balıq isə suyun təmsilçisidir. Ümumiyyətlə, qədim mənbələrə görə, bürclər üçlü qaydada bölünərək dörd ünsürü əhatə edirlər. Həmin bölgüyə görə, balıq, xərçəng, əqrəb suyu, qoç, şir, oxatan odu, buğa, qız, oğlaq torpağı, əkizlər, tərəzi, dolça havanı təmsil edir. Bunları nəzərə alsaq, qışın son ayı balıq (su), yazın ilk ayı qoç (od, istilik), yazın orta ayı buğa (torpaq), yazın son ayı əkizlərdir (hava). Beləliklə, bu bölgü bir xalq deyiminə də uyğun gəlir: “Qışın bir ayı yazdandır, payızın bir ayı qışdan”. Bu ifadədən erkən yazın kiçik çillədən sonra başlandığını söyləmək olar. Heç təsadüfi deyil ki, xalq arasında çilləbeçələr, boz ay, ağlar-gülər adları ilə yanaşı, bu aya “Bayram ayı” da deyilir. Qışdan bir ay alan yaz el arasında “tərlan quş” adlandırılır və deyilir: “Yaz bir tərlan quşdur, tutdun tutdun, tutammadın uçub gedəcək”. Bu o deməkdir ki, ilin əsası qışın sonundan, ilk oyanmadan, cəmrət düşməsindən başlayır, bir ay müddətinə təbiət yenidən doğulub nəfəsə gəlir. Bu dörd bitkinlik halında əkinçilik və maldarlıqla bağlı bütün işlər başa çatdırılmalıdır ki, sonrakı yetişmə və yığılma dövründə əl boş qalmasın. Burada bir deyimi də xatırlamaqda fayda görürük: “Qorxmayın qışdan ki, qabağı yazdır, qorxun yazdan ki, qabağı qışdır”.

Nəticədə, demək olar ki, çərşənbələr bütövləşmənin, doğulmanın, var olmanın əsası olan dörd ünsürlə – su, od, torpaq və hava ilə əlaqələndirilsə də, onlar bu adlarla ifadə olunmamışdır. Bir də vurğulamaqda fayda görürük ki, axır çərşənbə müstəsna olmaqla qalan üç çərşənbədə heç bir mərasim keçirilməyib. Mərasim, şənlik varolmadan, bütövləşmədən sonra baş verər ki, bu da ilaxırdadır. İlin axır çərşənbəsi olsa da, hələ il başa çatmayıb. Ona görə də axır çərşənbə nə qədər təntənəli keçsə də, ona bayram deyilmir. Novruz isə bu təntənələrin zirvəsi, ilin təhvil-təslimi, yeni günün başlanması bayramıdır. Xalq təqvimi dərindən araşdırıldıqca onun elmi əsaslara söykəndiyi, xalqımızın milli kimliyi, düşüncə tərzi ilə bağlılığı ortaya çıxır. Bunlara əsası olmayan əlavələrin edilməsi qondarmadan özgə bir şey deyil. Hansı təbiət ünsürü ilə bağlılığından asılı olmayaraq, xalqın min illərlə qoruyub saxladığı, müxtəlif inamlarla zənginləşdirdiyi, daha çox türk düşüncə tərzi ilə bağlı olan çərşənbələrin adlarının qorunub saxlanmasına, onlara keçmişdə olduğu kimi əməl edilməsinə böyük ehtiyac var: əzəl/yalançı çərşənbə, ikinci çərşənbə – xəbər/külə çərşənbə, üçüncü çərşənbə – quyruqlu/qara çərşənbə, dördüncü – axır/ilaxır çərşənbə.

**Qadir QƏDİRZADƏ**
*AMEA-nın müxbir üzvü*

## Xalq teatrı teatrsevərlərin görüşünə gəlib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov teatr sənətinin sahiblərinə və onların fəaliyyətlərinə yüksək qiymət verərək Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi münasibətilə keçirilən tədbirdə demişdir: ***"Naxçıvan teatrı da, necə deyərlər, quru yerdən yaranmamış, özündən əvvəl formalaşmış ənənələrə istinad etmişdir. Bu diyarda dünyəvi teatrın yaranmasına təsir göstərən ən mühüm amillərdən biri min illər boyu formalaşmış xalq teatrı olmuşdur. Əməklə bağlı oyun və rəqslər, mövsüm bayramları, Novruz mərasimləri, aşıq-ozan sənəti, müxtəliftipli meydan-tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Bütün bunlar isə, öz növbəsində, dünyəvi peşəkar teatr sənətinin yaranması ilə nəticələnmişdir".***

Uzun illərdən bəridir ki, Naxçıvan Muxtar Respublikasında xalq teatrlarının yaradılmasına ciddi diqqət yetirilir. Burada məqsəd muxtar respublika sakinlərinin mədəni istirahətini təşkil etməklə yanaşı, həm də istedadlı adamların üzə çıxarılması, onların köməyindən istifadə etməklə gənc mədəniyyət işçilərinin, gələcək aktyorların yetişdirilməsidir. Artıq muxtar respublikamızın bir neçə rayonunda xalq teatrının yaradılmasına nail olunmuşdur. Şahbuz Rayon Xalq Teatrı da yeni yaradılan teatrlardandır.



Son illərdə muxtar respublikada mədəniyyətin inkişafına göstərilən dövlət qayğısı nəticəsində Şahbuzda da mədəni həyat xeyli canlanmışdır. Dram dərnəyi öz fəaliyyətini bərpa edərək bir sıra tamaşalar hazırlamış, 2011-ci ildə "Ər və arvad" üçpərdəli musiqili komediyasının tədqimatından sonra kollektiv üzvləri öz arzularına çatmışlar.

2012-ci ildə "Beş manatlıq gəlin", "Evliykən subay" musiqili komediyalarını tamaşaçılara təqdim edən xalq teatrı öz repertuarını genişləndirərək bu günlərdə ölməz bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasını şahbuzlu tamaşaçılara təqdim etmişdir.

Tamaşa uğurlu oldu. Bu uğurun qazanılmasında quruluşçu rejissor Ramiz Cəlilovun, musiqi tərtibatçısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyevin böyük əməyi olmuşdur. İfaçılardan İlahə Səfiyeva, Səadət Abdinova, Gündüz Kəlbiyev, İsa Qələndərli, Nihad Hüseynov, Şahin Orucov, Emin Hüseynov, Səlim Bayramov, Namiq Qəmbərovun və başqalarının adlarını çəkə bilərik.

Bu istedadlı aktyorların uğurlu ifaları sayəsində "O olmasın, bu olsun" musiqili komediyasına yeni səhnə həyatı verildi və bu, şahbuzlu teatrsevərləri ürəkdən sevindirdi.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev və Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov tamaşadan sonra kollektivi uğurlu çıxışa görə təbrik etmişlər.

**Şəhla NƏBİYEVA**

## Frankofoniya günü qeyd olunub

Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramı qeyd olunub.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək fransız dilinin dünyada qəbul olunan əsas beynəlxalq dillərdən biri olduğunu, xarici dillərin, o cümlədən fransız dilinin öyrənilməsinin dünyaya inteqrasiya, ölkələrarası siyasi, elmi, mədəni əlaqələrin gələcək inkişafı baxımından zəruri olduğunu vurğulayıb. Rektor bu istiqamətdə universitetdə görülən işləri yüksək dəyərləndirərək bildirib ki, bu yaxınlarda Fransanın ali dövlət mükafatı – "Akademik Palma (Kavaler dərəcəsi)" ordeni ilə təltif edilən Azərbaycan təhsilinin dörd nümayəndəsindən biri Naxçıvan Dövlət Universitetinin Fransız dili kafedrasının müdiri, dosent Əli Allahverdiyev olub. O, Azərbaycanda fransız dilinin inkişafı və yayılması üçün göstərdiyi səylərə, Azərbaycan-Fransa ədəbi əlaqələri ilə bağlı apardığı elmi tədqiqatlara görə Fransanın Baş nazirinin təsdiqi ilə bu yüksək mükafata layiq görülüb. Rektor bu yaxınlarda Fransanın paytaxtı Paris şəhərində "Kampus Frans" Agentliyinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan günü" tədbirlərindən, Fransadakı Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətindən danışaraq qeyd edib ki, bütün bunlar iki ölkə arasında əməkdaşlığın, xüsusilə elm, təhsil sahəsində tərəfdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

"Fransız dili müəllimliyi" ixtisasının III kurs tələbəsi Gözəl Hümbətova Frankofoniya gününün tarixi haqqında məlumat verərək bildirib ki, fransız dilində danışanların bayramı olan Frankofoniya hər il dünyanın 50-dən çox ölkəsində keçirilir. Bu, fransız dilinə, mədəniyyətinə dünya xalqlarının yüksək ehtiramının əlamətidir. Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramının qeyd olunması 1998-ci ildən etibarən ənənə halını alıb.

Müxtəlif illərdə Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin, səfirliyin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə fransız dilində şeir və mahnılar səsləndirilib, Fransa mədəniyyəti ilə tanışlıq olub. "Fransız dili müəllimliyi" ixtisası tələbələrinin iştirakı ilə "Dədə Qorqud" və "Koroğlu" dastanlarından, dahi Azərbaycan şairi M.Füzulinin "Leyli və Məcnun" poemasından, M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükünü-məşhur", H.Cavidin "Şeyda" pyeslərindən parçalar fransız dilində səhnələşdirilib.

Tədbirdə "fransız dili müəllimliyi" ixtisasında təhsil alan tələbələrdən Nuray Cəlilova, Elvin Gülməmmədov, Sona İbrahimli, Orxan Qurbanov və digərlərinin ifasında fransız dilində şeir və mahnılar səsləndirilib. Tələbə mobilliyi əsasında universitetdə fransız dilini tədris edən Jeremie Çevalierin tələbələrlə birgə ifa etdiyi musiqi nömrələri, dahi bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasından fransız dilində təqdim olunan səhnələr alqışlarla qarşılanıb. Tələbələrdən Sərxan Rüstəmov, Elçin Bəhramlı, Nuray Cəlilova, Fətəlixan Hüseynli və digərlərinin fransız dilində sərbəst və səlis diksiyaları, aktyorluq məharətləri tamaşaçı rəğbəti doğurub.

**Mehriban SULTAN**

## Elektron xidmətlərin tətbiqi ilə əlaqədar maarifləndirici tədbirlər davam etdirilir

Şərur Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə keçirilən tədbirin mövzusu "Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi və avtomatlaşdırılmış pensiya təyinatı" olub.

Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Asif Hüseynov açıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdirləri Yaşar Məmmədov, Vaqif Rəsulov və İsmayıl Həsənov sığorta-pensiya sisteminin xüsusiyyətlərindən, məcburi dövlət sosial sığorta haqqı ödənişlərinin gələcək pensiya təminatındakı mühüm əhəmiyyətindən, əmək pensiyalarının təyinatı və ödənişi sahəsində elektron xidmətlərin tətbiqindən danışıblar.

Qeyd edilib ki, fondun internet səhifəsində yaradılmış elektron xidmətlər sisteminə istənilən vətəndaş daxil olaraq öz fərdi hesabı barədə məlumat ala, eləcə də pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablaya bilər. Diqqətə çatdırılıb ki, əmək pensiyası hüququ yaranmış hər bir vətəndaş hər hansı sənəd toplamadan və vaxt itirmədən fondda yaradılan pensiya təyinatı xidmətinə zəng vurub yalnız şəxsiyyət vəsiqəsinin nömrəsi barədə məlumat verməklə real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilər.

Bildirilib ki, "Məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi" elektron xidməti vasitəsilə istənilən sığortaedən heç yerə getmədən plastik kart vasitəsilə internet üzərindən məcburi dövlət sosial sığorta haqlarını onlayn ödəyə, kənd yerlərində yaşayan sığortaedənlər isə məcburi dövlət sosial sığorta haqlarını bağlanmış müqavilələrə əsasən, yaşadıqları yerlərdə poçt şöbələri vasitəsilə ödəyə bilərlər.

Şərur rayonunda sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı görülən işlər barədə fondun Şərur Rayon Şöbəsinin müdiri Firuz Novruzov çıxış edərək tədbir iştirakçılarına məlumat verib.

Tədbirin sonunda elektron xidmətlərin tətbiqi və istifadə qaydası ilə əlaqədar slayd göstərilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Martın 15-də Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə ölkə üzrə keçirilən fənn olimpiadalarının Azərbaycan Respublikası mərhələsinin yarımfinal turu keçirilib.*

## Olimpiadanın yarımfinal turunda 316 şagird biliyini sınayıb

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, 8 fənn üzrə keçirilən bilik olimpiadasının yarımfinal turunda IX-XI siniflər üzrə 316 şagird iştirak edib. Nəticələrin qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyində yaradılan komissiya tərəfindən aparılacaq. Müvəffəqiyyət qazanan şagirdlər olimpiadanın final mərhələsinə vəsiqə qazanacaqlar.

Məlumat üçün qeyd edək ki, istedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsi və rəğbətləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır. Muxtar respublikada təhsil sahəsində aparılan məqsədyönlü işlər nəticəsində məktəblərdə ayrı-ayrı fənlər üzrə olimpiadalarda iştiraka layiq şagirdlər seçilir və onların hazırlığına nəzarət gücləndirilir. Bu cür bilik olimpiadaları məktəblərin fəaliyyətinin əsas meyarlarından biri kimi dəyərləndirilir.

**Xəbərlər şöbəsi**

*İdman xəbərləri*

## "Şahin" hərbi-idman oyununun şəhər mərhələsi başa çatıb



Naxçıvan şəhər ümumtəhsil məktəbləri arasında "Şahin" hərbi-idman oyununun şəhər mərhələsi yekun vurulub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 11 ümumtəhsil məktəbinin komandası mübarizə aparıb.

Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev, polkovnik Mirqiyas Rüstəmov və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin nümayəndəsi leytenant Əli Kazımov yarış barədə fikirlərini bildirərək, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi haqqında danışıblar, şahinlərə uğurlar arzulayıblar.

Yarışın yekun nəticələrinə əsasən, 16 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Növbəti pillələrdə isə 15, 3 və 1 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar. Sonda qalib komandalar təşkilatçıların hədiyyələri, diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, birinci və ikinci yerlərin qalibləri aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

## "Naxçıvan" komandasının növbəti qələbəsi

Kişilər arasında basketbol üzrə muxtar respublika çempionatında növbəti oyun keçirilib. Sədərək rayonunda keçirilən görüşdə yerli komanda "Naxçıvan" komandasını qəbul edib. Çempionata qələbə ilə başlayan "Naxçıvan" yenə meydanı qələbə ilə tərk edib. Gərgin keçən oyunda "Sədərək" komandası rəqibinə 38:66 hesabı ilə məğlub olub.

Qeyd edək ki, "Naxçıvan" komandası çempionatın ilk oyununda "Babək" komandasını üstələməyi bacarmışdı.

## İdman yarışları keçirilib

### Şərurda...

Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə yeniyetmələr arasında sərbəst güləş üzrə rayon birinciliyi keçirilib. Birincilikdə 14 çəki dərəcəsində 56 pəhləvan qüvvəsini sınayıb. Qalib idmançılar təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

Şərur Rayon Gənclər və İdman İdarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şərur Rayon İdarəsinin və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə məktəblilərin "Şahin" hərbi-idman oyunu baş tutub. Yarışda 19 ümumtəhsil məktəbindən 266 şagird iştirak edib. Daha üstün oyun sərgiləyən Danyeri kənd tam orta məktəbinin komandası qalib olub. İbadulla kənd tam orta məktəbinin komandası ikinci, Dəmirçi kənd tam orta məktəbinin komandası isə üçüncü yerlərə layiq görülüblər. Qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

### ...və Şahbuzda

Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyinə yekun vurulub. 100-dən artıq zəka sahibinin iştirak etdiyi birinciliyin finalında 18 şahmatçı İsveçrə sistemi ilə mübarizə aparıb. Nəticəyə əsasən, Umud Məhərrəmli, Mətləb Məhərrəmli və Tuncay Cabbarov ilk üç yerin sahibi olublar.

Həmçinin Şahbuz və Culfa Rayon Gənclər və İdman idarələrinin, Təhsil şöbələrinin birgə təşkilatçılığı ilə rayonların məktəblilərdən ibarət voleybol komandaları arasında yoldaşlıq görüşü keçirilib. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin idman zalında keçirilən yarışda Şahbuz rayonunun voleybolçuları culfalı həmkarlarını 2:1 hesabı ilə məğlub ediblər.

**Ceyhun MƏMMƏDOV**


Babək "Sirab"Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

28 aprel 2015-ci il tarixdə saat 11⁰⁰-də cəmiyyətin Babək rayon Sirab kəndində yerləşən inzibati binasında səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

1. Reqlamentin təsdiqi
2. Cəmiyyətin 2014-cü ildəki maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı
3. 2015-ci ildə görüləcək işlər və qarşıda duran məsələlər
4. Cari məsələlər.

*Əlaqə telefonu: (036) 541-81-13*



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 232